“Strateji xəttimiz - sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur”

HEYDƏR ƏLİYEV

# MÜLKİYYƏT

Şənbə, 14 yanvar 2012-ci il № 02 (751) Qiymәti 30 qәpik Qəzet 1996-cı ildən çıxır

# Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülən işlər, Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olmuşdur







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 12-də Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülən işlər, Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olmuşlar.

Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi layihəsinin icrası ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Burada müasir standartlara cavab verən 8 zolaqdan ibarət yüksək səviyyəli yolun inşa olunduğu bildirildi. Piyadaların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə yol boyu piyada keçidləri də inşa olunacaqdır. Dövlətimizin başçısına yeni salınan bulvarda aparılan işlər barədə də məlumat verildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanında və onun ətrafında həyata keçirilən abadlıq və quruculuq işləri ilə yaxından tanış oldular. Görülən işlər barədə Prezidentə məlumat verildi.

Dövlətimizin başçısı və xanımı ərazidə inşa olunan yeni İdman-Konsert Kompleksinin tikintisinə də baxdılar. İnşaat işləri ilə tanışlıqdan sonra Prezident İlham Əliyev həyata keçirilən tədbirlərlə bağlı icraçılara müvafiq tapşırıqlarını verdi.

KOMİTƏDƏ

## Dövlət əmlakının idarə edilməsi sahəsində Koreya təcrübəsi öyrənilir

Əmlak Məsələləri Dövlət Komitəsi əsasnaməsi ilə müəyyən edilmiş vəzifə və funksiyaların icrası, o cümlədən daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması, daşınmaz əmlakın dövlət reyestrinin aparılması və vahid kadastrın tərtib edilməsi sahələrində işlərin daha da təkmilləşdirilməsi və səmərəliyin artırılması istiqamətində ardıcıl tədbirləri davam etdirir. Bu sahədə komitə bir sıra beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrin təcrübələrinin öyrənilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı mövzularda seminar və treninqlər, habelə işgüzar səfərlərin keçirilməsinə xüsusi önəm verilir.

2 →

## Azərbaycan Prezidenti İlham Əliyev Koreya Milli Assambleyasının sədri Pak Hi Tenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Koreya Respublikası Milli Assambleyasının sədri Pak Hi Tenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.**

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Əlaqələrimizin siyasi sahədə yüksək səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığımızın yaxşı nəticələr verdiyini, ölkələrimiz arasında ticarət dövriyyəsinin sürətlə artdığını dedi. Son illər Koreya şirkətlərinin Azərbaycan üçün vacib olan layihələrdə iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bu əməkdaşlığın daha da genişləndirilməsində ölkəmizin maraqlı olduğunu dedi. İkitərəfli münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin önəmini qeyd edən Prezident İlham Əliyev Koreya Respublikasının Milli Assambleyasının sədri Pak Hi Tenin ölkəmizə səfərinin uğurlu olacağına və səfər zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı səmərəli danışıqların və müzakirələrin aparılacağına əminliyini bildirdi.

Pak Hi Te Koreya Respublikası Milli Assambleyasının sədri kimi Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə etdi. O bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında diplomatik münasibətlərin yaradılmasının 20 illiyi ilə bağlı yubiley tədbirlərində iştirak etmək və ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparmaqdır. Azərbaycana səfəri zamanı ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğulayan Pak Hi Te Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə böyük tərəqqiyə nail olunduğunu dedi.

Görüşdə informasiya-kommunikasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində ölkələrimizin maraqlı olduğu bildirildi.

Sonda xatirə şəkli çəkdirildi.

2012-ci il fevral ayının 14-də keçiriləcək pul hərracında səhmləri satışa çıxarılacaq səhmdar cəmiyyətləri haqqında məlumat 4

14 fevral 2012-ci il tarixdə saat 10.30-da hərraca çıxarılacaq müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlaklar haqqında məlumat 5

10 yanvar 2012-ci il tarixdə keçirilmiş hərracda satılmış nəqliyyat vasitələrinin siyahısı 5

10 yanvar 2012-ci il tarixdə respublikanın şəhər və rayonları üzrə keçirilmiş hərraclarda satılmış obyektlərin siyahısı 6

# Dövlət əmlakının idarə edilməsi sahəsində Koreya təcrübəsi öyrənilir

**Əmlak Məsələləri Dövlət Komitəsi əsasnaməsi ilə müəyyən edilmiş vəzifə və funksiyaların icrası, o cümlədən daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması, daşınmaz əmlakın dövlət reyestrinin aparılması və vahid kadastrın tərtib edilməsi sahələrində işlərin daha da təkmilləşdirilməsi və səmərəliyin artırılması istiqamətində ardıcıl tədbirləri davam etdirir. Bu sahədə komitə bir sıra beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrin təcrübələrinin öyrənilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı mövzularda seminar və treninqlər, habelə işgüzar səfərlərin keçirilməsinə xüsusi önəm verilir.**

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında" Memorandum təsdiq edilmişdir. Bu əməkdaşlıq çərçivəsində komitə Koreya Respublikasında dövlət əmlakının idarə edilməsi sahəsində qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsi istiqamətində tədbirlər həyata keçirir. Bu tədbirlər çərçivəsində Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyinin Xəzinədarlıq Bürosunun Hökumət əmlakı siyasəti idarəsinin direktoru Kim Geum-nam, Həmin idarənin direktor müavini Jang Hyeon-jung, habelə Koreya Aktivlərin İdarə edilməsi Korporasiyasının (KAMCO) meneceri Kim Dong-hyun və onun müavini Yang Dong-geun təmsil etdiyi nümayəndə heyəti Bakıda səfərdə olmuşlar.

Koreya nümayəndə heyətinin səfəri çərçivəsində, 10-11 yanvar 2012-ci il tarixlərində Komitənin əməkdaşları üçün dövlət əmlakının idarə edilməsi sahəsində Koreya Respublikasının təcrübəsinə həsr edilmiş seminar təşkil edilmişdir.

Tədbirdə Komitənin Mərkəzi aparatının və strukturuna daxil olan qurumların əməkdaşları iştirak etmişdir.

Seminarda Koreya Respublikasının müvafiq qurumlarının əməkdaşları təqdimatlarla çıxış etmişlər. Tədbirdə çərçivəsində dövlət əmlakının idarə edilməsi sahəsində dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi istiqamətində görülən işlərlə bağlı Koreya təcrübəsi öyrənilmişdir.

Seminarın gedişində dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi üzrə Koreya Respublikasında toplanılmış təcrübənin Azərbaycanda istifadəsi imkanları barədə fikir mübadiləsi aparılmışdır.

Eyni zamanda ölkəmizə səfər etmiş nümayəndələrlə Əmlak Məsələləri Dövlət Komitəsində müvafiq istiqamətdə əməkdaşlıq əlaqələrinin gələcəkdə inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir.

# Azərbaycanda əmlakın istifadə edilməsinə görə sığorta onun təyinatından asılı olacaq



**Daşınmaz əmlakın istifadəsi zamanı icbarı mülki məsuliyyət sığortası üzrə sığorta mükafatlarının məbləğinin hesablanması qaydaları açıqlanıb. Qaydalar "İcbarı sığortalar haqqında" yeni qanun çərçivəsində təsdiqlənib. Sığorta şirkətləri qanunun tətbiqinə 2011-ci il dekabrın 16-dan başlayıblar.**

Bu növ üzrə 1 il müddətinə bağlanan müqavilə zamanı bu növ üzrə sığorta məbləği risk qrupuna uyğun müəyyən edilir. Risk qrupu isə öz növbəsində, daşınmaz əmlakın mövcud olduğu iqtisadi fəaliyyətin növündən asılıdır.

| Risk qrupu | Sığorta məbləği (manat) |
|---|---|
| 1 | 30 |
| 2 | 60 |
| 3 | 90 |
| 4 | 120 |

İnzibati bina onların sahiblərinin və ya faktiki sahibi olan digər şəxslərin həyata keçirdiyi iqtisadi fəaliyyətin növündən asılı olmayaraq, birinci risk qrupuna aiddir.

Əmlakın risk qrupu iqtisadi fəaliyyətin növündən asılı olaraq göstərilən cədvəldəki kimi müəyyən edilir.

Bu növdən başqa, yeni qanun icbari sığortanın 3 növünü - daşınmaz əmlak, sərnişinlərin icbarı fərdi sığortası və avtomobil nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyəti (OSAQO) sığortasını tənzimləyir.

Bu növlər üzrə polisləri İcbarı Sığorta Bürosunun iştirakçıları olan şirkətlər sata bilərlər. Büronun təsisçiləri 6 şirkətdir - "Paşa Sığorta", "Atəşgah Sığorta", "Ata Sığorta", AXA MBASK, "Xalq Sığorta" və "Standard Insurance". Daha sonra büroya "AzSığorta" üzv qəbul edilib.

"AzSığorta" istisna olmaqla, bütün bu şirkətlər icbarı sığortanın 3 növü - OSAQO, daşınmaz əmlak və daşınmaz əmlakın istifadəsi zamanı mülki məsuliyyət üzrə xidmətlər göstərəcək. "Atəşgah Sığorta" ancaq OSAQO üzrə işləyəcək. Yəni bu gün Azərbaycanda sərnişinlərin icbarı sığortası hələ işləmir.

İnzibati qanun pozuntuları haqqında məcəlləyə uyğun olaraq, Azərbaycanda icbarı sığorta növləri üzrə sığorta müqaviləsi bağlanmamasına görə cərimələr fiziki şəxslər üçün 10 manat, vəzifəli şəxslər üçün 60-80 manat, hüquqi şəxslər üçün isə 150-200 manat həcmində müəyyən edilib.

| Risk qrupu | İqtisadi fəaliyyət növü |
|---|---|
| 1 | Maliyyə və sığorta fəaliyyəti |
| | Dövlət idarəsi və mühafizəsi, icbari sosial təminat |
| | Toxunulmazlıq hüququna malik təşkilatların fəaliyyəti |
| | Daşınmaz əmlakla bağlı əməliyyatlar |
| 2 | İnzibatı və dəstək xidmətlərinin göstərilməsi |
| | Təhsil |
| | Peşəkar, elmi və texniki fəaliyyət |
| | İnformasiya və rabitə |
| | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| | Əhaliyə tibbi və sosial xidmətlərin göstərilməsi |
| | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| 3 | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| | Nəqliyyat və anbar təsərrüfatı |
| | Topdan və pərakəndə ticarət, avtomobil və motiskletlərin təmiri |
| | Su təchizatı, çirkab suların və tullantıların təmizlənməsi |
| 4 | Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təminat |
| | Emal sənayesi |
| | Mənzilin təşkili və ictimai yaşayış |
| | Hasilat sənayesi |
| | Tikinti |

## Bu il Azərbaycanda ümumi daxili məhsulun 5,7 faizi artacağı proqnozlaşdırılır

Son qlobal proqnozları nəzərə alaraq 2012-ci ildə də Azərbaycanın ixracını təşkil edən əmtəə qiymətlərinin tədiyyə balansına müsbət təsir edəcəyi gözlənilir. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə bu il neftin bir barelinin qiyməti 100 dollardan çox olacaqdır. Bu da büdcə paketində nəzərdə tutulmuş səviyyədən (80 dollar) daha yüksəkdir. Bu şəraitdə cari əməliyyatlar balansında profisit hesabına valyuta ehtiyatları artmaqda davam edəcəkdir. Azərbaycan Mərkəzi Bankının qiymətləndirmələrinə görə isə 2012-ci ildə tədiyyə balansının cari əməliyyatlar hesabında ümumi daxili məhsulun 20-25 faizi qədər profisitin olacağı gözlənilir. 2012-ci ildə daxili dövlət tələbinin yüksək səviyyəsi şəraitində iqtisadi artımın davam edəcəyi proqnozlaşdırılır. Ölkənin sosial-iqtisadi inkişaf proqnozlarına uyğun olaraq bu il ümumi daxili məhsulun 5,7 faizi artacağı proqnozlaşdırılır.

# Azərbaycan rayonlarında ərzaq məhsullarının qiyməti ucuzlaşıb

**Məlumata görə, ucuzlaşma daha çox unun qiymətində özünü göstərir. Belə ki, 2 ay bundan əvvəl 20-21 manata satılan unun 50 kq-lıq kisəsi hazırda 13-16 manata təklif olunur. Satıcılar unun qiymətindəki enmənin dekabrın əvvəllərindən başladığını bildirir. Onlar ucuzlaşmanın səbəbini taxılın qiymətində görür. Satıcıların sözlərinə görə, idxal olunan taxılın ucuzlaşması unun da qiymətinə təsir edib.**



Ucuzlaşan digər yeyinti məhsulu isə ətdir. Bu məhsulun qiymətindəki enmə təxminən bir manat təşkil edir. Əvvəllər 8 manata satılan mal əti indi 7 manata və 7 manat 50 qəpiyə təklif olunur. Ətin qiymətindəki ucuzlaşma son bir neçə həftədir müşahidə edilir. Satıcılar bunu vətəndaşların alıcılıq qabiliyyətinin aşağı olması ilə əlaqələndirir. Soğan və kartofun qiymətində də azalma müşahidə olunur. 9-10 manata satılan 35 kq soğan kisəsinin qiyməti son bir ay ərzində 7 manata düşüb.

İstehlakçıların hüquqlarının müdafiəsi dövlət xidmətinin Quba-Xaçmaz Regional Şöbəsinin baş məsləhətçisi Nadir Hüseynov da son 2 ayda bir sıra ərzaq məhsullarının qiymətinin ucuzlaşdığını deyir. O, unun qiymətində olan enməni yeni istehsalçıların yaranması və onlar arasındakı rəqabətlə əlaqələndirir. Ətin qiymətinin aşağı düşməsini isə Nadir Hüseynov alıcılıq qabiliyyətinin aşağı olması ilə izah edir. O, bildirir ki, ətin qiymətinin bir qədər də aşağı düşəcəyi ehtimal olunur. Hazırda ucuzlaşma Quba və Xaçmaz rayonlarında müşahidə edilir.

# Azərbaycanda iqtisadi inkişaf davamlı xarakter daşıyır



**Azərbaycandakı iqtisadi sistem qlobal maliyyə böhranından əziyyət çəkən bir sıra dövlətlər üçün nümunə ola bilər. Bu barədə "Bloomberg" agentliyində dərc olunan materialda deyilir. Materialda qeyd olunur ki, 2012-ci ilin əvvəlinə olan statistikaya görə, dünyanın inkişaf etmiş ölkələrinin ümumi borcu 7,6 trilyon ABŞ dolları təşkil edir. Dünya iqtisadiyyatına böyük təsir imkanına malik olan ABŞ-ın 2,8, Yaponiyanın isə 3 trilyon xarici borcu vardır.**

Azərbaycanda isə iqtisadi inkişaf davamlı xarakter daşıyır. Ölkənin strateji maliyyə ehtiyatları onun xarici borcundan qat-qat çoxdur. İri dövlət investisiyaları hesabına yeni iş yerləri açılır, bu da öz növbəsində işsizliyi əhəmiyyətli dərəcədə azaldır. Azərbaycanda aparılan geniş abadlıq-quruculuq işləri, nəqliyyat infrastrukturunun yenilənməsi, sahibkarlara və iş adamlarına dövlətin güzəştli kreditlər verməsi sənaye və kənd təsərrüfatının inkişafına səbəb olur. Həyata keçirilən bütün bu tədbirlər hökumətin böhrana qarşı səmərəli tədbirlərindən xəbər verir. Dövlət investisiyalarının artırılması və qeyri-neft sektorunun inkişafına yönəldilməsi onu deməyə əsas verir ki, hökumət neftdən gələn gəlirlərdən olduqca səmərəli istifadə edir. Avropa ölkələrində isə dövlətin xarici borcunun ödənilməsinin ağırlığı vətəndaşların çiyninə düşür. Müəssisələr bağlanır, minlərlə işsizlər ordusu yaranır. Azərbaycanda əmək haqlarının ildən-ilə artdığı halda, Avropada vergilər artırılır, sosial ödənişlər isə azaldılır. Materialda o da vurğulanır ki, həqiqətən də milli iqtisadiyyatın inkişafı üçün maliyyə resurslarına malik olmaq heç də işin hamısı deyildir, əsas məsələ bu maliyyədən necə istifadə etməkdədir. Neftlə zəngin ölkə olmaq da inkişafın zəruri olacağına dəlalət etmir. Azərbaycandan da çox neft ehtiyatına malik olan ölkələr var, lakin bu ölkələrdə nəinki inkişaf müşahidə edilmir, əksinə bir çox hallarda həmin ölkələrdə yüksək inflyasiya, qeyri-sabit ictimai-siyasi vəziyyət, vətəndaş müharibələri baş verir. Belə hallar isə inkişafa yox, geriləməyə aparır.

# KfW-nin vitse-prezidenti Azərbaycana səfər edəcəkdir

Fevralın əvvəlində Almaniya İnkişaf Bankı - KfW-nin vitse-prezidenti Yeva Vittin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər edəcəkdir. Bankın Bakıdakı ofisindən bildirmişlər ki, hökumət nümayəndələri ilə keçiriləcək görüşlərdə əməkdaşlığın hazırkı vəziyyəti müzakirə olunacaqdır. Nümayəndə heyətinə qurumun Azərbaycandakı maliyyə layihələri üzrə yeni təyin olunmuş meneceri Kurt Ştrasser də daxildir.

# Azərbaycanda dəmir yolu ilə ötən il 3,5 mln. sərnişin daşınıb

Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2011-ci il ərzində ümumilikdə 22,1 mln. ton yük daşınıb. Daxili daşımalar 4,4 mln. ton, ixrac 4,4 mln. ton, idxal 5,5 mln. ton, tranzit 7,8 mln. ton təşkil edib. Hesabat ili ərzində dəmir yolu ilə sərnişin daşımaları 3,5 mln. nəfər təşkil edib, o cümlədən, birbaşa əlaqə 290 min nəfər, yerli əlaqə 1,5 mln. nəfər olub. Vaqonun sərnişin sıxlığı 21,0 nəfər olub.

# Azərbaycan şirkəti Türkiyə fond bazarında fəaliyyət göstərmək üçün lisenziya alıb

**Azərbaycanın "Forex-Az" şirkəti (eyni adlı törəmə şirkəti vasitəsi ilə) Türkiyənin qiymətli kağızlar və sərmayə bazarlarında broker fəaliyyəti göstərmək hüququ qazanıb.**

"Forex-Az" şirkətinin rəhbəri Elşən Quliyev məlumat verib. Onun sözlərinə görə, yanvarın 10-da Türkiyənin TMSF (Tasarruf Mevduatı Sigorta Fonu) qurumunun 2-ci dəfə təşkil etdiyi qiymətli kağızlar və sərmayə bazarları lisenziyasının tenderində üç şirkət - "Bank Asya", "Guler Yatırım" və "Forex-Az" şirkəti təklif verib. Qızğın mübarizə şəraitində keçən açıq hərracda sonda "Bank Asya"-dan daha yüksək təklif verən "Forex-Az" şirkəti 2,6 mln. türk lirəsi ödəməklə broker lisenziyası əldə edib. Bununla da 2003-cü ildən fəaliyyətini dayandırılan "ADA Menkul Degerler" şirkətinin lisenziyası bu tender nəticəsində qalib gələn şirkətə verilib.

# ICANN yüksək səviyyəli domenlərin qeydiyyatı üçün ərizələrin qəbuluna başlayıb

**İnternet şəbəkəsində domen məkanının idarəedicisi "Internet Corporation for Assigned Names and Numbers" (ICANN) korporasiyası yüksək səviyyəli domenlərin qeydiyyatı üçün ərizələrin qəbuluna başlayıb.**

İndi ünvanların ənənəvi *.com, *.org və ya *.az kimi sonluqların əvəzinə praktiki olaraq istənilən sözdən, hətta latın dilində olmayan sözlərdən istifadə etmək mümkün olacaq. Belə domen üçün qeydiyyat haqqı 185 min ABŞ dolları təşkil edir. İddiaçılar ərizələrini 2012-ci il aprelin 12-dək ICANN-a göndərə bilər. Yeni domen sisteminin işə salınması üzrə real qrafikin hələ ki mövcud olmadığı nəzərə alınsa, bunun uzunmüddətli olacağı gözlənilir. ICANN nümayəndələri bildirirlər ki, yüksək səviyyəli domenlərin qeydiyyat qaydasına ciddi şəkildə nəzarət edərək müəllif hüquqlarının pozulması ilə qeydiyyat üçün göstərilən cəhdlərin qarşısı alınacaq.



# Avronun gələcəyi

**Avronun bir çox tənqidçilərindən fərqli olaraq McKinsey şirkətinin analitikləri onu Avropanın düşməni deyil, dostu hesab edirlər.**

"Avronun gələcəyi" adlı tədqiqatda deyildiyi kimi, avro zonasına daxil olan bütün, hətta problemli ölkələr də onun tətbiqindən udmuşlar. McKinseyə xəbərdarlıq edirlər ki, valyuta ittifaqının iflası bütün ölkələrin iqtisadiyyatını dağıdacaqdır. McKinseyin hesablamalarına görə, vahid pul vahidinin tətbiqi, məsələn, 2010-cu ildə 17 ölkənin hamısına 332 milyard avro, yaxud onların ümumi daxili məhsulunun 3,6 faizi qədər gəlir gətirmişdir. Bu məbləğin böyük bir hissəsini (195 milyard avronu) aşağı uçot dərəcələri sayəsində, 100 milyard avronu isə vahid ticarət bazarının inkişafı hesabına əldə etmək mümkün olmuşdur. Maraqlıdır ki, avronun tətbiqindən hətta ən problemli ölkələr - Yunanıstan, İtaliya, Portuqaliya da udmuşlar. Onların iqtisadiyyatı "varlanmışdır". McKinsey şirkətinin analitikləri aparıcı ölkələrin yüksəlişinin nisbətən zəiflərin hesabına baş verdiyini hesab edən avro tənqidçilərinin mülahizəsini rədd etmişlər.

McKinsey avronun iflası ssenarisini bütün region üçün faciə hesab edir. Bu halda vahid valyutanı yalnız şimal ölkələri - Almaniya, Fransa, Lüksemburq, Belçika, Avstriya, Finlandiya, Estoniya, Slovakiya və Sloveniya qoruyub saxlaya bilərlər. Nəticədə bütün keçmiş avro regionunu 2008-2009-cu illərdəkindən də ağır resessiya gözləyir. Avronu tərk etmiş ölkələrin iqtisadiyyatı 2016-ci ilədək 2,7 faiz aşağı düşəcək, dövlət borcu ümumi daxili borcun 129 faizinədək, işsizlik isə 24 faizədək artacaqdır. Avronun gələcəyi üçün iki ssenari daha məqbuldur. Onlardan birincisi büdcə intizamının gücləndirilməsidir. Bu barədə dövlətlərin liderləri dekabrda razılığa gəlmişlər. Daha bir variant bütün milli büdcələrin faktiki olaraq vahid, fövqəlmilli büdcədə birləşməsidir.

## Çinin xarici ticarət dövriyyəsi ölkə tarixində ən yüksək həddə çatmışdır

**Çin Xalq Respublikasının (ÇXR) xarici ticarət dövriyyəsi 2011-ci ilin yekunlarına görə ölkə tarixində ən yüksək həddə çatmışdır.**

ÇXR Baş Gömrük İdarəsinin məlumatına görə, ötən il xarici ticarət dövriyyəsi 22,5 faiz artaraq 3,64 trilyon ABŞ dolları olmuşdur. Ötən il ölkənin ixracı 1,9 trilyon, idxalı isə 1,74 trilyon dollar təşkil etmişdir. İxrac və idxal arasındakı fərq 14,5 faiz azalaraq 155,14 milyard dollar olmuşdur. Çin hazırda idxalın həcminə görə dünyada ikinci yerdədir. ÇXR-in ötən il ən böyük ticarət tərəfdaşı 567,21 milyard dollarla Avropa İttifaqı ölkələri olmuşdur. İkinci yerdə 446,65 milyard dollarla ABŞ-dır.

## AŞPA sədri Mövlud Çavuşoğlunun səlahiyyət müddəti yanvarın sonunda başa çatır

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri Mövlud Çavuşoğlunun səlahiyyət müddəti yanvarın sonunda başa çatır.

M.Çavuşoğlu jurnalistlərə bildirmişdir ki, AŞPA-da səlahiyyət müddəti yekunlaşdıqdan sonra fəaliyyətini Venesiya Komissiyasında davam etdirəcəkdir. M.Çavuşoğlunu AŞPA-nın sədri vəzifəsində Avropa Xalq Partiyası fraksiyasının vitse-prezidenti Jan Klod Minon əvəz edəcəkdir.

## Ötən il dünyada 980 mln. turist səfəri həyata keçirilib

**Ötən il dünyada 980 mln. turist səfəri təşkil edilib ki, bu da bir il əvvəlki göstəricini 4% üstələyib. Bu barədə Ümumdünya Turizm Təşkilatının baş katibi Taleb Refai İspaniyanın EFE agentliyinə müsahibəsində bildirib.**

Onun sözlərinə görə, 2012-ci ildə turist səfərlərinin sayının 1 mlrd.-a çatacağı gözlənilir. T.Refai iqtisadiyyatın bütün sahələrində müşahidə olunun çətinlik və problemlərə baxmayaraq, ötən ilin turizm üçün uğurlu olduğunu vurğulayıb.

Avropada turist səfərlərinin sayı böhrana rəğmən, proqnozu üstələyib. Yunanıstan, İrlandiya, Portuqaliya və İspaniya kimi ölkələrdə isə müvafiq olaraq 14%, 13%, 10% və 8% artım qeydə alınıb. Baş katib avropadakı borc böhranına baxmayaraq, bu il 3%-dən çox artım proqnozlaşdırdıqlarını və bunun 2010-cu il göstəricilərini 7% üstələyəcəyini qeyd edib.

## Avropa Birliyi: Yunanıstan, İtaliya və İspaniyanın İran neftindən asılılığı azalacaq

**Avropa Birliyi İran neftinə sanksiya tətbiq edəcəyi halda, bu ölkənin dünya bazarına verdiyi nefti Liviya və Fars körfəzinin digər ölkələri qarşılayacaq. Bu barədə Avropa Birliyinin sədri, Danimarkanın xarici işlər naziri Villi Sovndal jurnalistlərə açıqlamalarında deyib.**

Villi Sovndal əlavə edib ki, Avropa ölkələri İran neftinə sanksiya tətbiq edilməsi ilə bağlı 2012-ci il yanvarın 23-də qərar verəcəklər: "İrandan neft alınmadığı halda, Səudiyyə Ərəbistanı, Küveyt və neftini daha çox satmaqda maraqlı olan ölkələr neft bazarını təmin edəcəklər. Elə neft ölkələri var ki, daha çox məhsul ixrac etmək istəyirlər. Onların sayəsində neft bazarında qıtlıq olmayacaq". Villi Sovndal İran neftindən asılı olan ölkələrin də problemlərinin həll ediləcəyini bildirib: "Liviya da neft təsisatını təmir edir və əvvəllər olduğu kimi neft ixrac edəcək. Odur ki, İran neftinə çox bağlı Yunanıstan, İtaliya və İspaniyanın bu ölkədən asılılığı azalacaq". Qeyd edək ki, İspaniya, Yunanıstan və İtaliyanın neftə olan ehtiyacının müvafiq olaraq 13, 14 və 15%-ni İran ödəyir.

## Sürətli dəmir yolu Britaniyada 2026-cı ildə olacaqdır

**Böyük Britaniya hökuməti Londonla Birminhem arasında yüksək sürətli dəmir yolu magistralının çəkilişinə dair planları bəyənmişdir.**

Yolun birinci seksiyası artıq 2026-cı ilə hazır ola bilər. Bütün layihə 32 milyard funt sterlinqə başa gələcəkdir, layihənin iqtisadi səmərəsi 44 milyard funt sterlinq olacaqdır. Birinci seksiyanın tikintisinin başa çatması Londondan Birminhemə səyahətin müddətini 49 dəqiqəyə endirəcəkdir. Qatarlar saatda 225 mil sürətlə hərəkət edəcəklər.



## Avrokomissar Almaniyanın iki enerji konserninin birləşməsini təklif edib

**Avropa Birliyinin (AB) enerji məsələləri üzrə komissarı Günter Ottinger Almaniyanın iki enerji konserninin - "E.On" və "RWE" şirkətlərinin birləşməsi təklifi ilə çıxış edib.**

"Deutsche Welle"yə istinadən xəbərinə görə, G.Ottinger adı çəkilən şirkətlərin ümumdünya miqyası baxımından "regional liqada" olduğunu bildirib. "Əgər Almaniya "Exxon", "Chevron" və "Qazprom" kimi konsernlərlə yüksək liqada oynamaq istəyirsə, ona müvafiq miqyasda oynaya biləcək milli oyunçu lazımdır" - deyə G.Ottinger qeyd edib.

Onun fikrincə, "E.On" və "RWE" şirkətlərinin birləşməsi dünya bazarında Almaniya energetika sənayesinin çəkisini və rəqabət qabiliyyətini artıracaq.

Qeyd edək ki, iqtisadi böhran "E.On" və "RWE" şirkətlərinin fəaliyyətinə ciddi təsir edib. "E.On" 80 min əməkdaşından 10 min nəfərini, "RWE" isə 72 min əməkdaşından 8 min nəfərini ixtisar etməyə hazırlaşır.

## Rusiyanın ticarət profisiti ötən il 29% artıb

Rusiyanın ticarət balansının profisiti 2011-ci ildə 29% artaraq 198,1 mlrd. dollara yüksəlib. Hesabat dövründə cari əməliyyatların müsbət saldosu 101,1 mlrd. dollar təşkil edib ki, bu da 2010-cu il göstəricisindən 43,8% çoxdur. Rusiyadan ixracın həcmi 521,4 mlrd. dollar (+30,2%), idxalın həcmi isə 323,3 mlrd. dollar (+30%) olub. Rusiyadan özəl kapitalın axını 2,5 dəfə artaraq 84,2 mlrd. dollara, kapitalın banklar vasitəsilə axını isə 15,9 mlrd. dollardan 26,2 mlrd. dollara yüksəlib.

# ELANLAR

## 14 fevral 2012-ci il tarixdə saat 11:00-da respublikanın şəhər və rayonlarında hərraca çıxarılacaq kiçik dövlət müəssisə və obyektlərinin siyahısı

| № | Müəssisə və obyektin adı | Ünvanı | Tabe olduğu təşkilatın adı | İcarə müqaviləsinin nömrəsi və tarixi | Ümumi sahəsi (kv.m) | İşçilərinin sayı (nəfər) | Start (satış) qiyməti (100%) (manat) | İlkin satış qiyməti (85%) (manat) | Güzəştli satışa yönəldilən hissəsi (15%) (manat) | 10% beh (manat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Mağaza | Balakən şəhəri, R.Səmədov küçəsi | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | x | 118,0 | x | 5490 | 5490 | x | 549 |
| 2 | 18 saylı yeməkxana | Daşkəsən şəhəri, İ.Qayıbov küçəsi | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | x | 18,8 | x | 799 | 799 | x | 80 |
| 3 | Hamam binası | Neftçala şəhəri, Ü.Hacıbəyov küçəsi, 5a | Neftçala Rayon İcra Hakimiyyəti, Neftçala rayonu Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi | x | 346,1 | 1 | 13851 | 11773 | 2078 | 1177 |

**Qeyd:** Hərrac yerli hərrac komissiyaları tərəfindən keçiriləcəkdir. Hərraclarda iştirak etmək üçün müvafiq hərrac komissiyasına aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim olunmalıdır:
1.Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd.
2.Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təsdiq edilmiş formada sifariş.
3.Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd.
(10% məbləğində beh Azərbaycan Respublikası Mərkəzi Bankında Əmlak Məsələləri Dövlət Komitəsinin 0132010004944 nömrəli hesablaşma hesabına ödənilməlidir).
Hərracların keçirilməsi haqqında əlavə məlumatları Hərracların Təşkili üzrə Auksion Mərkəzindən və Əmlak Məsələləri Dövlət Komitəsinin Kiçik özəlləşdirmənin təşkili və icarə şöbəsindən almaq olar.

## 14 fevral 2012-ci il tarixdə saat 11:00-da Bakı şəhərində 3-cü dəfə təkrar hərraca çıxarılacaq kiçik dövlət müəssisə və obyektlərinin siyahısı

| № | Müəssisə və obyektin adı | Ünvanı | Tabe olduğu təşkilatın adı | İcarə müqaviləsinin nömrəsi və tarixi | Ümumi sahəsi (kv.m) | İşçilərinin sayı (nəfər) | İlkin satış qiyməti (manat) | 10% beh (manat) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 75 nömrəli mağaza | Bakı şəhəri, Suraxanı rayonu, Zığ şosesi | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | x | 334,6 | 1 | 98723 | 9872 |
| 2 | "Qərənfil" kafesi | Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, E.Qasımov küçəsi, 20 saylı binanın qarşısı | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | x | 245,7 | 1 | 70583 | 7058 |
| 3 | "Tələbə" İcarə Müəssisəsi | Bakı şəhəri, Binəqədi rayonu, A.Gəraybəyli küçəsi, 53a | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | 2448 13.06.2006 | 278,7 | 2 | 119251 | 11925 |

**Qeyd:** Hərrac Bakı şəhərində Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən keçiriləcəkdir. Hərraclarda iştirak etmək üçün müvafiq hərrac komissiyasına aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim olunmalıdır:
1.Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd.
2.Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təsdiq edilmiş formada sifariş.
3.Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd.
(10% məbləğində beh Azərbaycan Respublikası Mərkəzi Bankında Əmlak Məsələləri Dövlət Komitəsinin 0132010004944 nömrəli hesablaşma hesabına ödənilməlidir).
Hərracların keçirilməsi haqqında əlavə məlumatları Hərracların Təşkili üzrə Auksion Mərkəzindən və Əmlak Məsələləri Dövlət Komitəsinin Kiçik özəlləşdirmənin təşkili və icarə şöbəsindən almaq olar.

# 2012-ci il fevral ayının 14-də keçiriləcək pul hərracında səhmləri satışa çıxarılacaq səhmdar cəmiyyətləri haqqında məlumat

| Sıra sayı | Səhmdar cəmiyyətinin adı və təsis tarixi | Səhmdar cəmiyyətinin hüquqi ünvanı | Nizamnamə kapitalının həcmi (manat) | Buraxılmış səhmlərin ümumi sayı (ədəd) | Bir səhmin nominal qiyməti (manat) | Satışa çıxarılmış səhmlər | | Satışa çıxarılan səhmlərin nominal dəyəri (manat) | Satışa çıxarılan səhmlərin ilkin hərrac (satış) qiyməti (manat) | İlkin satış qiymətinin 10%-i həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | sayı (ədəd) | nizamnamə kapitalında %-lə | | | |
| 1 | Ağdaş Pambıq № 603 15.08.97 | Ağdaş rayonu, Ləki qəsəbəsi | 2149280,00 | 1074640 | 2,00 | 322711 | 30,03 | 645422,00 | 322711,00 | 32271,10 |
| 2 | Ağsu Mehmanxana №367 25.12.2000 | Ağsu şəhəri | 69022,00 | 34511 | 2,00 | 10382 | 30,08 | 20764,00 | 10382,00 | 1038,20 |
| 3 | Ağsu Sənaye İnşaat №31 31.01.2008 | Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi | 69540,00 | 34770 | 2,00 | 15637 | 44,97 | 31274,00 | 15637,00 | 1563,70 |
| 4 | Anar №247 26.05.1997 | Şirvan şəhəri, Salyan şosesi, M.Talıboğlu küçəsi | 605138,80 | 302569 | 2,00 | 90908 | 30,05 | 181816,00 | 90908,00 | 9090,80 |
| 5 | Balakən Kəndkimya №1078 01.12.1997 | Balakən şəhəri, Hənifə kəndi | 24658,00 | 12329 | 2,00 | 3585 | 29,08 | 7170,00 | 3585,00 | 358,50 |
| 6 | Bərdə Dəmir Beton-9 № 270 25.10.2000 | Bərdə rayonu, Alaçadırlı kəndi | 2035090,00 | 1017545 | 2,00 | 305264 | 30,00 | 610528,00 | 305264,00 | 30526,40 |
| 7 | Bərdə Mexaniki Təmir № 272 25.10.2000 | Bərdə rayonu, Alaçadırlı kəndi | 245038,00 | 122519 | 2,00 | 36787 | 30,03 | 73574,00 | 36787,00 | 3678,70 |
| 8 | Bərdə Pambıq № 500 31.07.97 | Bərdə şəhəri, Nizami küçəsi, 75 | 1011079,80 | 505540 | 2,00 | 149398 | 29,55 | 298796,00 | 149398,00 | 14939,80 |
| 9 | Bərdə Xidmət №490 31.07.1997 | Bərdə şəhəri, Ü.Hacıbəyov küçəsi, 19 | 299452,80 | 149726 | 2,00 | 44918 | 30,00 | 89836,00 | 44918,00 | 4491,80 |
